**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# S Ə R Ə N C A M

**“Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 25 dekabr tarixli 6-VII FR nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında**

“Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 25 dekabr tarixli 6-VII FR nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə:

1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (dövlətin hüquqi şəxsləri) ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 25 dekabr tarixli 6-VII FR nömrəli Fərmanına (bundan sonra - Fərman) uyğunlaşdırılması ilə bağlı təkliflərini beş ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi (bundan sonra - Nazirlik):

2.1. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırmaqla, Nazirliyin yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin (bundan sonra – Xidmət) əsasnaməsinin layihəsini bir ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.2. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırmaqla, Nazirliyin tabeliyində “Dövlət Ekoloji Ekspertiza Agentliyi” publik hüquqi şəxsin (bundan sonra - Agentlik) nizamnaməsinin layihəsini bir ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.3. Agentlik dövlət qeydiyyatına alındığı gündən bir ay müddətində Nazirliyin yanında Ekoloji Ekspertiza, Ətraf Mühitə və Təbii Ehtiyatlardan İstifadəyə Nəzarət Xidmətinin balansındakı əmlakın yeni yaradılan Xidmətin və Agentliyin arasında bölgüsü ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırmaqla, Nazirliyin tabeliyində əlvan və qara metal tullantıları istisna olmaqla, təhlükəli tullantıların, o cümlədən istehsalat, tibbi, yararsız tullantıların, zərərli kimyəvi maddələrin, civə və civə birləşmələrinin yığılması (toplanması), daşınması, yerləşdirilməsi, çeşidlənməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması üzrə işləri həyata keçirən məhdud məsuliyyətli cəmiyyətin təsis edilməsi ilə bağlı təkliflərini iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.5. Agentliyin strukturu, əməyin ödənişi fondu, işçilərinin say həddi və onların əməkhaqlarının məbləği (vəzifə maaşı, vəzifə maaşına əlavələr, mükafatlar və digər ödənişlər) barədə təkliflərini iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları dörd aydan gec olmayaraq, Fərmanın icrasını təmin etmək məqsədilə öz səlahiyyətləri daxilində normayaratma vəzifələrindən irəli gələn tədbirlər görüb, normativ hüquqi aktlarını və ya təkliflərinin olmadığı barədə məlumatı Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinə təqdim etsinlər və icra vəziyyəti tələb etdikdə, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versinlər.

4. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Fərmana uyğunlaşdırılmasını təmin edib, bu barədə altı ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “29” dekabr 2024-cü il

№ 136s